**UOT 745/746**
**https://doi.org/10.59849/2311-8482.2024.1.142**

**SAMİR SADIQOV ***

# XALQ RƏSSAMI HEYKƏLTƏRAŞ FUAD ƏBDÜRRƏHMANOVUN YARADICILIĞINDA TARİXİ ŞƏXSİYYƏTLƏRİN OBRAZLARI

*Məqalədə heykəltəraşlıq sənətində tarixi janrın inkişafına nəzər yetirilmişdir. Heykəltəraşlıqda bu janrın inkişafı tarixi hadisələrə və tarixi şəxsiyyətlərə müraciətdə özünü göstərir. Xalq rəssamı Fuad Əbdürrəhmanovun yaradıcılığında tarixi janra müraciət məqalənin tədqiqat obyektinə çevrilmişdir. Heykəltəraşın yaratdığı dramaturq Əbdürrəhim bəy Haqverdiyevin, mütəfəkkir Mirzə Fətəli Axundzadənin və aktyor Hüseyn Ərəblinskinin portretləri, snayper Ziba Qəniyevaya, təyyarəçi Hüseynbala Əliyevə, Sovet İttifaqı Qəhrəmanı Xıdır Mustafayevə və general Həzi Aslanova həsr etdiyi əsərlərini misal gətirmək mümkündür.*

***Açar sözlər:*** *Heykəl, monumental, obraz, tarixi janr, kompozisiya, plastika, Fuad Əbdürrəhmanov*

## Giriş

Rəngkarlıq və qrafikadan fərqli olaraq heykəltəraşlıqda tarixi janrın inkişafını əsasən görkəmli şəxsiyyətlərə həsr olunmuş abidə və portretlərdə izləmək mümkündür. Amma bu sahədə yaradılan əsərlərin nə qədər tarixi olsalar da, zamanın sınağından çıxmaları bir qayda olaraq onların bədii-estetik səviyyəsi ilə bağlı olmuşdur.

## Əsas təhlil

Azərbaycan heykəltəraşlığının parlaq simalarından sayılan Fuad Əbdürrəhmanov elə otuzuncu illər yaradıcılığında bir çox tanınmış şəxsiyyətlərin yaddaqalan obrazlarını yaratmaqla, milli plastika sənətimizin tarixi janrını duyulası dərəcədə zənginləşdirmiş oldu. Bu mənada dramaturq Əbdürrəhim bəy Haqverdiyevin (1933), mütəfəkkir Mirzə Fətəli Axundzadənin (1934) və aktyor Hüseyn Ərəblinskinin (1934) portretlərinin adını çəkmək olar. Müəllifin müxtəlif xarakterli bu obrazlara onların hər birini səciyyələndirən ikonoqrafik xüsusiyyətlərlə yanaşı, həm də fərdi psixoloji yaşantılarına təsirli plastik tutum verə bilməsi haradasa onun üçün Nizami mövzusuna bir hazırlıq olmuşdur, desək, yanılmarıq.

Nizami yubileyinə hazırlıqla əlaqədar abidənin qarşısındakı tikilidə şairin adını daşıyacaq muzeyin təşkili onun lociyasında Azərbaycan poeziyasının görkəmli nümayəndələrinin heykəllərinin yaradılması məsələsini gündəliyə gətirdi. Beləliklə, Nizami Gəncəvinin abidəsi ilə üzbəüz onun altı xələfinin heykəli yerləşdirildi. Bunlar Məhəmməd Füzulinin (müəllifi F.Əbdürrəhmanov), Xurşudbanu Natəvanın (müəllifi Y.Tripolskaya), Molla Pənah Vaqifin (müəllifi C.Qaryağdı), Cəlil Məmmədquluzadənin (Y.Zaxarov), Cəfər Cabbarlının (S.Klyatski) və Mirzə Fətəli Axundzadənin (P.Sabsay) obrazları idi. Bu heykəllərdə də tanınmış söz xiridarlarının plastik tutum almış görüntüləri cəlbedici və tarixi baxımdan inandırıcı idi.

Heykəltəraşlığımızda yer almış müharibə ünvanlı hər bir əsərdə tarixilik kifayət qədər duyulandır. Doğrudan da ön cəbhədə nümayiş etdirdikləri rəşadətlə həm də məxsus olduqları xalqa qürurdoğuruculuq bəxş edən qəhrəmanların hər birinin heykəlləşmiş obrazları nəsillər arasında mənəvi əlaqənin möhkəmləndirilməsində əvəzsiz rol oynayır. Bu mənada Fuad Əbdürrəhmanovun snayper Ziba Qəniyevaya (1941), təyyarəçi Hüseynbala Əliyevə (1941), Sovet İttifaqı Qəhrəmanı Xıdır Mustafayevə (1942) və general Həzi Aslanova (1949) həsr etdiyi əsərlərin adını çəkmək olar.

Heykəltəraşın müharibə illərində xalq qəhrəmanlarının obrazlarına müraciəti isə o vaxtlar arxa cəbhədə fədakarlıq göstərən insanları düşmən üzərində qələbəyə həvəsləndirmək istəyindən irəli gəlmişdi. Görkəmli heykəltəraşın Cavanşir, Babək və Koroğluya həsr etdiyi dairəvi relyeflərdə xalq qəhrəmanlarının obrazlarına xas olan qətiyyət və mübarizlik duyulandır.

Əlavə edək ki, F.Əbdürrəhmanovla yanaşı respublikanın digər heykəltəraşları da İkinci dünya savaşında igidliklər göstərmiş həmyerlilərinin obrazlarını plastika nümunələrində əbədiləşdirmişlər. Zivər Məmmədovanın Hüseynbala Əliyevə, Hüseyn Əhmədovun Xəlil Məmmədov və Qafur Məmmədova, Cəlal Qaryağdının İsrafil Məmmədov və Adil Quliyevə, Pyotr Sabsayın Mehdi Quliyev, Kamal Qasımov və Xıdır Mustafayevə həsr etdiyi heykəltəraşlıq nümunələri bu qəbildəndir.

Heykəltəraşlığımızın nailiyyətlərindən bəhs edərkən ilk növbədə monumental heykəltəraşlıq

nümunələrini nəzərdən keçirmək lazımdır. Çünki Bakıda və digər şəhərlərimizdə ucaldılan möhtəşəm abidələr heykəltəraşlığımızın yaradıcılıq məharətinin xeyli yüksəldiyini göstərir. Müasir Azərbaycan heykəltəraşlığında isə bu yöndə aparılan yaradıcı axtarışların ilk uğurlu nümunələrini görkəmli tişə ustası Fuad Əbdürrəhmanov yaratmışdır. 1939-cu ildə mərkəzi icra orqanlarının dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinin qeyd olunması və bu məqsədlə onun obrazının yaradılması üçün müsabiqə keçirilməsi haqqında qərar qəbul etməsi, bu məşhur söz adamının obrazını yaratmaq üçün geniş imkanlar açdı. Düzdür, nəzərdə tutulan 1941-ci ildə İkinci Dünya savaşının başlanması ilə əlaqədar yubileyin keçirilməsi ertələnsə də, 1940-cı ildə şairin rəngkarlıq və heykəltəraşlıq obrazlarının yaradılması istiqamətində mühüm işlər görüldü.

Qeyd edək ki, şairin portretinin bizim dövrə gəlib çatmaması üzündən keçirilən bu müsabiqə iştirakçılarının qarşısında çox çətin yaradıcılıq vəzifəsi dururdu. Lakin buna baxmayaraq Ümumittifaq çərçivəsində təşkil olunan bu sənət yarışmasının nəticələri uğurlu oldu. Rəngkarlıq sahəsində azərbaycanlı fırça ustası Qəzənfər Xalıqov, heykəltəraşlıq üzrə isə gənc tişə ustası Fuad Əbdürrəhmanov qalib gəldi. Onun iki variantda işlədiyi heykəlin biri şairin doğulduğu Gəncə şəhərində (1947), digəri isə Bakıda (1949) ucaldıldı. Gəncədə yerləşən abidə 1948-ci ildə SSRİ Dövlət mükafatına layiq görülsə də, geniş ictimaiyyətə paytaxtdakı heykəl daha yaxşı tanışdır. Yeri gəlmişkən deyək ki, bu abidə bəlkə də Azərbaycanda yeganə plastika nümunəsidir ki, onun ucaldılması ilə əlaqədar həmin məkanda əhatəli yenidənqurma işi aparılmışdır. Heykəlin qoyulacağı yerdə xüsusi layihəyə (müəllifləri S.Dadaşov və M.Hüseynovdur) uyğun bağ salınmış, heykəlin qarşısından aşağıya doğru istiqamətlənən terras xarakterli eniş sonda öndə şairin adını daşıyan və lociyası altı məşhur söz xiridarının heykəlləri ilə bəzədilmiş muzey binasına qovuşmuşdur. Başqa sözlə desək, dahi söz xiridarı ilə onun xələfləri arasında mənəvi körpü əldə olunmuşdur.

Abidəni şairin səkkiz metrlik mərmər kürsü üzərində ayaq üstə dayanan əzəmətli tunc fiquru təşkil edir. Qeyd edək ki, müəllif arzulanan bu əzəmətin-möhtəşəmliyin əldə olunması üçün çox çalışmış və davamlı axtarışlardan sonra fiqur üçün arzulanan səciyyəvi və cəlbedici duruş, inandırıcı geyim və üz cizgiləri tapmağa, bütünlükdə, Nizami Gəncəvinin yaddaqalan obrazını yaratmağa nail olmuşdur. Əsərdə Nizami Gəncəvi seyrçi ilə üzbəüz ayaq üstə, əlləri nisbi hərəkətdə - sol əli əbanı, sağı isə lülə halında bükülmüş kağızı saxlayan vəziyyətdə təsvir olunmuşdur. Doğrudan da, monumentallığı birmənalı olan bu əsər nə qədər ciddi, başqa sözlə desək, klassik biçimdə həll olunsa da, müəllif sakit duruşlu şairin varlığına xas olan müdrikliyi və əyilməzliyi vurğulamaqla, abidəni təşkil edən plastik formaların gözoxşayan harmoniyasına nail olmuşdur. Şairin şəxsiyyətinə xas olan insani və yaradıcı xüsusiyyətləri elə onun öz əsərlərindən əxz edən F.Əbdürrəhmanov onun qürurlu başı, həyatsevər çöhrəsi, uzaqlara yönəli düşüncəli baxışları ilə məşhur “Xəmsə” müəllifinin bu günə kimi bədii əhəmiyyətini itirməyən müdrik obrazını yarada bilmişdir. Heç şübhəsiz şairin obrazının bütövlüyünün əldə olunmasına səkkizbucaqlı kürsünün yeddisi üzərində “Xəmsə” mövzusunda yaradılmış barelyeflər da təsir göstərmişdir. Rəssam Q.Xalıqovun eskizləri əsasında heykəltəraş P.Xrünovun hazırladığı barelyeflərin bədii şərhi də fiqurun traktovkası ilə həmahənglik təşkil etməklə, abidədən alınan təəssüratı gücləndirə biləcək bir tutumdadır [2, s. 12].

Abidənin Gəncə variantındakı Nizami Gəncəvinin fiquru da əzəmətliliyi, lakin bir qədər lirik ovqat daşıyıcılığı ilə fərqlənir. Müəllif əsərdə məna-məzmun dərinliyi ilə plastik dekorativliyin vəhdətinə nail olmaqla, böyük Nizami dühasının möhtəşəmliyini özündə yaşadan yaddaqalan obraz yaratmağa nail olmuşdur.

Heç şübhəsiz F.Əbdürrəhmanovun Nizami obrazı üzərində apardığı işin uğuru onun gələcək axtarışları üçün təkanverici amil oldu və o, yaradıcılığının sonrakı mərhələlərində bir çox Şərq filosoflarına, eləcə də müasirlərinə həsr etdiyi abidələrdə də əldə etdiyi bədii-texniki məziyyətləri onlarda tətbiq etməyə nail oldu.

Bunun ilk əyani görüntüsü onun 1960-cı ildə Bakıda ucaldılmış “Azadlıq” abidəsi oldu, desək, yanılmarıq. Bu dəfə də tanınmış memar M.Hüseynovla əməkdaşlıq edən heykəltəraş onunla birlikdə metronun “Nizami” stansiyasına yaxın yerdəki kiçik bağda ucaldılacaq heykəl üçün uğurlu memarlıq-heykəltəraşlıq həlli tapa bildilər. Sosializm cəmiyyətinin qurulmasına qadınların başqalarından heç də az töhfələr vermədiyini yeni əsəri üçün əsas mövzu seçən heykəltəraş, bunu başından örpəyini atan gənc qadının simasında ifadə etmişdir. Ümumi hündürlüyü on altı metrə çatan abidənin çox hissəsini (on bir metr) kürsü, qalan hissəsini (beş metr) isə tunc heykəl tutur. Aşağıdan yuxarıya doğru ensizləşən mərmər kürsünün üzərində milli geyimdə, başını dik saxlayan sakit duruşlu qadının hərəkətində çox cəlbedici bir sərbəstlik duyulur. Fiqurun bütün plastik formalarının aydınlığına nail olan müəllif

onun ifadəli siluetində, kürsüdən aşağı düşməkdə olan örpəyinin ritmində qadının yaşadığı psixoloji məqamın inandırıcı plastik tutumunu verməklə, onun obrazlı görkəm almasını şərtləndirmişdir. Daha çox onun sovet dönəmi düşüncəsinin məhsulu olmasından çıxış edərək ona müəyyən ideoloji məna verməyə çalışılsa da, obraz plastik tutumuna görə hər hansı "ideoloji kanon"dan uzaq görünür, desək, yanılmarıq. Başqa sözlə desək, fiqurun məzmunu çox vaxt "azadlıq" məfhumu ilə ifadə olunsa da, əslində o, öz dövrünün ən yaxşı mənəvi-etik dəyərlərini özündə hifz edən monumental obraz kimi baxılır.

Yeri gəlmişkən deyək ki, vaxtilə bu abidə fonunu ikimərtəbəli bina təşkil edən kiçik bağda qoyulduğundan onun monumentallığı daha qabarıq idi. Lakin paytaxtda aparılan yenidənqurma işlərindən sonra həmin bina çoxmərtəbəli tikili ilə əvəzləndi və onun möhtəşəmliyinin üzərinə duyulası "kölgə" salındı. Sonradan həmin binanın fasadı nisbətən işıqlı kolorit alsa da, "Azadlıq" abidəsi hələ də "əsarət"də qalmaqdadır.

Sonrakı illərdə paytaxtımızın ümumi mənzərəsinə onun yaratdığı iki heykəl-xalq şairi Səməd Vurğunun (1961) və Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin (1973) abidəsi daxil olsa da, onlarda yuxarıda şərh etdiyimiz əsərlərdə müşahidə etdiyimiz bədii-estetik xüsusiyyətlər qabarıq görünmür. Hər iki tanınmış şəxsiyyətdə plastik tutumu cəlbedici və duyğulandırıcı edə biləcək mənəvi-insani xüsusiyyətlər olsa da, müəllif bu əsərlərdə yalnız özünün yüksək professionallığının hesabına onların baxımlılığına nail ola bilib. Akademik bədii şərhə bağlılıq tanınmış tişə ustasına nə şairin yaradıcılığından qaynaqlanan lirik-romantik duyğulara, nə də misilsiz igidlikləri dillər əzbəri olan qəhrəmanın cəsurluğunu qabardan məziyyətlərə plastik görkəm verməyə imkan verməmişdir. Başqa sözlə desək, insani xüsusiyyətlər və onun fəaliyyəti obrazlı tutum ala bilməmişdir [7, s.123-134].

Bir-neçə il sonra isə görkəmli heykəltəraş respublikanın hüdudlarından kənarda ucaldılan iki əsərində şair Rudəki (1964) və filosof İbn Sinanın (1971) abidələrində Şərqin məşhur şəxsiyyətlərinin yaddaqalan obrazlarını yaratmışdır.

1957-ci ildə Rüdəkinin (Əbu Abdulla Rüdəki) Düşənbə şəhərində qoyulacaq abidəsi üçün elan olunmuş Ümumittifaq müsabiqəsində 115 layihənin arasında birinci mükafata layiq görülən F.Əbdürrəhmanov sonda sovet heykəltəraşlığının uğuru sayıla biləcək bir əsər yaratmış oldu. O, Nizami Gəncəvinin abidəsi üzərində çalışdığı dövrdə apardığı axtarışları bu dəfə də təkrarlamalı oldu. Heç şübhəsiz bu prosesdə onun Şərq poeziyasını dərindən bilməsi ölçüyə gəlməz dərəcədə karına gəldi. Ancaq azərbaycanlı tişə ustası bununla kifayətlənmədi, davamlı olaraq tacik xalqının mədəniyyət və incəsənət abidələri haqqında məlumat verən tarixi və ədəbi qaynaqlarla tanış oldu. Qənaətimizcə, onun taleyinə təzadlı ömür payı yazılmış Rüdəkinin yaddaqalan obrazının yaradılmasında bu axtarışların müsbət təsiri oldu. Odur ki, abidənin 1964-cü ildə baş tutan açılışında təntənəli mərasimə toplaşanlar hündür kürsü üzərində haqqında zəngin məlumata malik olduqları və "Şairlərin Adəmi" ayaması ilə tanınan görkəmli söz ustasını gördülər. Belə ki, bir əli ilə əsaya söykənən, korlara xas səciyyəvi hərəkətlə digər əlini irəli uzadan şairin yüksəklikdən "boylanan" fiquru doğrudan da, cəlbedici və çox təsirli idi. Bir çox istedadların faciəvi taleyini özündə hifz edən və keçmişdən öz xələflərinə əlini uzadan şairin aldığı poza çox təsirli idi, desək, həqiqəti söyləmiş olarıq. Bu, sözün əsl mənasında gözünün nurunu itirmiş böyük söz ustasının əsl obrazı idi. Heç şübhəsiz, heykəltəraşa obrazın bu yaddaqalan görkəmini əldə etmək, Rüdəki varlığına xas olan səciyyəvi xüsusiyyətlərə plastik tutum vermək gərgin axtarışlardan sonra nəsib olmuşdu.

Fuad Əbdürrəhmanov Rüdəkinin simasında çox parlaq milli xüsusiyyətləri ifadə edə bildiyindən, bütün uğurlu memarlıq-heykəltəraşlıq münasibətlərinə görə monumentallığını əldə edə bildiyi bu abidə zamanında böyük sənət uğuru kimi dəyərləndirildi. Bu abidənin yaradılmasına görə heykəltəraşın 1966-cı ildə SSRİ Rəssamlıq Akademiyasının qızıl medalına layiq görülməsi də onun yüksək sənətkarlığının professionallar tərəfindən dəyərləndirilməsinin göstəricisi oldu.

Fuad Əbdürrəhmanovun yaradıcılığında xüsusi yer tutan İbn Sinaya (Əbu Əli ibn Sina) həsr olunmuş abidəni onun yaddaqalan obraz yaratmaq sahəsində növbəti uğuru saymaq olar. Qeyd edək ki, hələ 1956-cı ildə İbn Sinaya Buxarada qoyulacaq abidə üçün keçirilən Ümumittifaq müsabiqəsində onun təqdim etdiyi layihə birinci mükafata layiq görülmüşdü. Müxtəlif səbəblərdən onun reallaşdırılması gecikdi və yalnız 1970-ci ildən başlayaraq onun gerçəkləşdirilməsi prosesi sürətlə davam etdi və 1975-ci ildə onun açılışı baş tutdu. 1971-ci ildə dünyasını dəyişən heykəltəraşa həmin günü görmək qismət olmadı. Zamanında sovet monumental heykəltəraşlığına layiqli töhfə kimi dəyərləndirilən bu abidədə görkəmli alim-loğmanın diqqətçəkən obrazı yaradılmışdır. Fuad

Əbdürrəhmanov böyük şəxsiyyətlərlə bağlı digər əsərlərində olduğu kimi bu abidədə də şəxsiyyətin obrazlaşmasını qarşısına yaradıcı vəzifə kimi qoymuş və gərgin axtarışların sayəsində uğurlu nəticə əldə etmişdir [4, s.21].

Abidənin kompozisiyasını İbn Sinanın sağ əli kitablı, düşüncələrə bələnmiş fiquru təşkil edir. İki metrlik tunc heykəldə Fuad Əbdürrəhmanov görkəmli alim-loğmanın özündə ictimai və milli idealları birləşdirən fiqurunu ərsəyə gətirməklə, Şərq dünyasında kifayət qədər məşhur olan şəxsin inandırıcılığı şübhə doğurmayan obrazını yaratmşdır. Elə geyimi ilə qəhrəmanının milli mənşəyinin tanınmasına ip ucu verən müəllif, İbn Sinanın bütün əzalarının plastik tutumunda, nurlu simasını gözəlləşdirən cizgilərin ahəngdarlığında yüksək insani və yaradıcı keyfiyyətlər daşıyıcılığını ifadə edə bilmişdir. Doğrudan da bütün vurğuladığımız bədii-estetik və forma-biçim, plastik tutumdan "boylanan" qəhrəmanın humanistliyini özünün daxili dinamikaya tapınan bədii şərhi ilə yaddaqalan tutumda göstərə bilmiş, abidənin obrazlaşmasını şərtləndirmişdir.

**Nəticə**

Qeyd etmək lazımdır ki, milli tariximizin sovet mərhələsi nə qədər ideologiyaya bağlı olsa da, rəssam və heykəltəraşlarımız ən müxtəlif janrlarda yaratdıqları əsərlərdə müasir dövrdə baş verənlərlə yanaşı, keşmişin miqyaslı hadisələrinə zaman-zaman qayıdır, bir-birindən fərqli sənət nümunələri yaratmaqda davam etmişlər. Bu yerdə deyək ki, Fuad Əbdürrəhmanovun yaradıcılığında bu davamlı şəkil almış yeni qayıdışlar əvvəlki bədii yanaşmalardan fərqli tutumda olmuş, daha çox şəxsiyyət və epoxa, "mən" və zaman münasibətlərinə, cəmiyyət və xalq qarşısında cavabdehlik məsələlərinə cavab axtarılmış və bu səbəbdən də belə tarixi tutumlu sənət nümunələri estetik zövq mənbəyi olmaqla yanaşı, həm də tamaşaçının dialoqa çəkən bədii qaynağa çevrilmişlər.

## ƏDƏBİYYAT


1. Əliyev, Z., Xəlilov, A. Azərbaycan incəsənəti. II-III hissələr. Bakı: 2011, s. 142
2. Sadıqov, S. Heykəltəraş Fuad Əbdürrəhmanovun "Nizami Gəncəvi" abidəsi \\ Paritet qəzeti, 2012, 21-22 fevral, s.12.
3. İbrahimov, T. Fuad Əbdürrəhmanov. Bakı: Şərq-Qərb, 2013, s. 104.
4. Novruzova, C. Fuad Əbdürrəhmanov. Bakı: 2004, 86 s.
5. Novruzova, C. Sovet Azərbaycanının heykəltəraşlığı. Bakı: 1973
6. Новрузова, Д.Г. Новые поиски в монументальной скульптуре // Известия АН Аз ССР, серия литературы, языка и искусства, 1969, №2, с.123-134.
7. Новрузова, Д.Г. Скульптура Советского Азербайджана. Баку: 1979, 160 с.


***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent.***
***e-mail: Samir_qismetoglu@mail.ru***

**Samir Sadigov**

## IMAGES OF HISTORICAL FIGURES IN PEOPLE'S ARTIST SCULPTOR FUAD ABDURRAHMANOV'S ACTIVITY

In the article the development of the historical genre in the art of sculpture is looked through. The development of this genre in sculpture is manifested in an appeal to historical events and historical figures. The appeal to the historical genre in the activity of People's artist Fuad Abdurrahmanov has become the object of research of the article. The portraits of some famous persons such as the playwright Abdurrahim bey Hagverdiyev, the thinker Mirza Fatali Akhundzade and the actor Huseyn Arablinsky, the sniper Ziba Ganiyeva, the pilot Huseynbala Aliyev, the hero of the Soviet Union Khidir Mustafayev and the general Hazi Aslanov can be shown as examples.

**Keywords:** *sculpture, monumental, image, historical genre, composition, plasticity, Fuad Abdurrahmanov*

**Самир Садыгов**

## ОБРАЗЫ ИСТОРИЧЕСКИХ ЛИЧНОСТЕЙ В ТВОРЧЕСТВЕ НАРОДНОГО ХУДОЖНИКА, СКУЛЬПТОРА ФУАД АБДУРРАХМАНОВА

В статье рассматривается развитие исторического жанра в искусстве скульптуры. Развитие этого жанра в скульптуре проявляется в обращении к историческим событиям и историческим личностям. Обращение к историческому жанру в творчестве народного художника Фуада Абдуррахманова стало объектом исследования данной статьи. Следует упомянуть созданные скульптором портреты драматурга Абдуррахим-бея Агвердиева, мыслителя Мирзы Фатали Ахундзаде и актера Гусейна Араблинского, а также его работы, посвященные снайперу Зибе Ганиевой, летчику Гусейнбале Алиеву, Герою Советского Союза Хыдыру Мустафаеву, и генералу Хази Асланову.

**Ключевые слова:** *скульптура, монументальный, образ, исторический жанр, композиция, пластика, Фуад Абдуррахманов.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 12.01.2024**
**Son daxilolma tarixi:14.02.2024**